# XUDAFƏRİN

"Xudafərin harayından qalan mən!.."



Qəzet 1932-ci ildən çıxır  № 11-12 (6803-6804)  18 oktyabr 2018-ci il  Cəbrayıl RİH-nin orqanı


# 18 Oktyabr Dövlət Müstəqilliyi günüdür



## Azərbaycan çox dəyərli, böyük hörmətə, yüksək beynəlxalq nüfuza malik ölkədir

*İqtisadi müstəqilliyi dövlətimizin tarixi nailiyyəti kimi səciyyələndirən İlham Əliyev regionların sosial- iqtisadi inkişafı ilə bağlı IV Dövlət Proqramının hazırlandığını bildirdi*

***Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

***Dövlət başçısı iclasda geniş nitq söylədi.***

***

***Yığıncaqda Vergilər naziri Mikayıl Cabbarov, Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov çıxışlar etdilər.***

*2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

*2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Doqquz ay ərzində mən 12 xarici səfər etmişəm və 15 dövlət və hökumət başçısı Azərbaycana səfərlər etmişdir. Bu onu göstərir ki, Azərbaycanın çox çevik və çoxşaxəli xarici siyasəti vardır. İkitərəfli formatda əldə edilmiş razılaşmalar icra edilir, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim sözümüzə inanırlar. Çünki sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur.

*Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir. Bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib.

*İqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılmışdır. Bu ilin doqquz ayında ümumi daxili məhsul 0,8 faiz artmışdır. Qeyri-neft sektorunda artım isə 1 faizdir. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb.

*Valyuta ehtiyatlarımız 45 milyard dollara çatıb. İlin əvvəlindən bəri biz əlavə 3 milyard dollar yığmışıq. Biz öz vəsaitimizə böyük qənaətlə yanaşırıq. Həm ölkə qarşısında duran vacib məsələləri həll edirik, investisiya layihələrini, infrastruktur layihələrini icra edirik, sosial məsələlərin həllini təmin edirik, eyni zamanda ehtiyatlarımızı da artırırıq və əminəm ki, ilin sonuna qədər daha da artacaq.

*Biz istəyirik ki, Azərbaycan ilə daha çox hesablaşsınlar. Biz istəyirik ki, Azərbaycandan daha çox məsələlər asılı olsun və buna nail oluruq. Regionda baş verən hadisələr, bizim təşəbbüsümüzlə icra edilən nəhəng enerji, nəqliyyat layihələri, digər sahələrdə apardığımız işlər siyasi çəkimizi böyük dərəcədə artırıb. Biz prinsipial siyasət aparırıq. Bütün prinsipial məsələlərlə bağlı öz mövqeyimizi ortaya qoyuruq, ölkəmizin milli maraqlarını layiqincə yerinə yetiririk və bundan sonra da bu yolla gedəcəyik.

*Azərbaycan iqtisadiyyatı istənilən dövrdə öz dayanıqlılığını nümayiş etdirir. Hətta bir neçə il bundan əvvəl dünyanı bürümüş maliyyə-iqtisadi böhranının ikinci dalğası dövründə də Azərbaycan iqtisadiyyatı dayanıqlılığını təmin etmişdir.

*Struktur islahatları, şəffaflıq, korrupsiyaya, rüşvətxorluğa qarşı ciddi mübarizə gömrük orqanlarında 800 milyon manatdan çox əlavə vəsaitin toplanmasına səbəb olubdur.

*Sahibkarlar vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq.

## Medal təqdim olundu

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2018-ci il tarixli 371 nömrəli Sərəncamı ilə Əsədov Nəriman Şirvan oğlu "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. Bu münasibətlə oktyabrın 2-də Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı cənab Kamal Həsənov Bakı şəhərindəki qərargahında Əsədov Nəriman Şirvan oğlua "Dövlət qulluğunda fərqlənməyə görə" medalını təqdim etdi.**





Təqdimat mərasimində Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının birinci müavini, YAP Cəbrayıl rayon təşkilatının sədri cənab Arif Fərzəliyev, RİH aparatının məsul işçiləri, rayon Təhsil Şöbəsinin müdiri Zamiq Qurbanov, rayon ümumtəhsil məktəblərinin direktorları iştirak edirdilər.

Nəriman müəllim ona göstərilən bu yüksək etimada görə ölkə başçısı İlham Əliyev cənablarına və belə təntənəli təqdimat üçün isə Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı cənab Kama Həsənova minnətdarlığını ifadə etdi. Bildirdi ki, bu medal onun üzərinə düşən məsuliyyət yükünü bir qədər də artırır. Ona görə də indidən belə də öz üzərinə düşən işin öhdəsindən uğurla gələcək, ona bəslənilən bu etimadı həmişə doğruldacaqdır.

**"Xudafərin"**

## Təbrik edirik!



"5 oktyabr - Beynəlxalq Müəllimlər Günü" ərəfəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təhsil işçilərinə fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

Azərbaycan Respublikası Prezidentinin 04 oktyabr 2018-ci il tarixli Sərəncamına əsasən Azərbaycan təhsilinin inkişafında xidmətlərinə görə Cəbrayıl rayon Vahid İsmayılov adına Çərəkən kənd tam orta məktəbinin İngilis dili müəllimi Cəmil Cavadov da "Əməkdar müəllim" adına layiq görülmüşdür.

Bu münasibətlə Cəmil müəllimi təbrik edir, pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq!

**"Xudafərin"**

"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

# COCUQ MƏRCANLIDAN XƏBƏRLƏR

## Cocuq Mərcanlıda "Cəsur ürəklər" layihəsi çərçivəsində futbol turniri keçirilib



Cocuq Mərcanlı kəndində AFFA tərəfindən inşa olunmuş süni örtüklü futbol meydançasında "Cəsur ürəklər" layihəsi çərçivəsində turnir keçirilib.

"Füzuli"(Füzuli), "Lokomotiv" (Beyləqan), "İmişli"(İmişli), "Zobucuq"(Füzuli), "Cocuq Mərcanlı"(Cəbrayıl), "Böyük Bəhmənli"(Füzuli) və "Araz Yağlıvənd"(Füzuli) komandalarının iştirak etdiyi turnirin qalibi "İmişli" komandası olub. İkinci və üçüncü yeri müvafiq olaraq "Zobucuq" və "Lokomotiv" komandaları tutublar.

Qalib gələn komandalara AFFA tərəfindən kubok, medal və idman ləvazimatı hədiyə edilib. Həmçinin layihə çərçivəsində Cocuq Mərcanlı qəsəbəsində yaşayan ailələr üçün UNICEF tərəfindən "Uşaqlarda davranış problemləri" adlı treninq keçirilib. Treninq çərçivəsində valideynlərlə davranış problemləri barədə interaktiv şəkildə müzakirələr aparılıb, yarana biləcək fəsadlar və onların aradan qaldırılması haqda məlumat verilib.

## Dövlət Gömrük Komitəsinin sədri Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində vətəndaşları qəbul etdi



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbirlər görürlər.

Sentyabrın 28-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində vətəndaşları qəbul edib.

Dövlət Gömrük Komitəsinin sədri qəbuldan öncə Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstəsi qoyub.

Eyni zamanda, işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində dövlət başçısının tapşırıqlarına uyğun olaraq görülmüş geniş quruculuq işləri, o cümlədən müasir infrastruktur ilə tanışlıq olub.

Səfər Mehdiyev kənd məktəbində müəllim və şagirdlərlə görüşüb, məktəbə Dövlət Gömrük Komitəsi adından hədiyyələr təqdim edib.

Həmçinin komitə sədri yerli sakinlərlə görüşüb, onların şəraiti və qayğıları ilə maraqlanıb. Qeyd edilib ki, Cocuq Mərcanlı kəndində görülən işlər və yaradılan şərait ölkəmizdə hər bir sahədə gedən dinamik inkişafın bariz nümunəsidir.

Sakinlər kənd azad edildikdən sonra Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə Cocuq Mərcanlının yenidən qurulduğunu, insanların təhlükəsiz yaşayışının təmin edildiyini bildirib, ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Cocuq Mərcanlı kəndində yeni tikilmiş tibb məntəqəsi və məscid binası ilə də tanış olan Komitə sədri daha sonra vətəndaşları qəbul edib.

Qəbulda Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakinləri ilə yanaşı bölgədə yerləşən Füzuli, Zəngilan, Qubadlı və Xocavənd rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

## Cənubi Koreya səfirliyi və Koreya Şərq Təbabəti Klinikası Cocuq Mərcanlıda



Cənubi Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin, SEBA Koreya Şərq Təbabəti Klinikasının təşkilatçılığı və Cəbrayıl Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Cocuq Mərcanlı sakinlərinə dəstək layihəsi həyata keçirilib.

Layihə çərçivəsində Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Çanq-gyu Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfər edib.

Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Çanq-gyu əvvəlcə Cocuq Mərcanlı kənd tam orta məktəbi ilə tanış olub. Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov səfirə ermənilərin işğal olunmuş ərazilərdə törətdikləri vəhşiliklər, Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına müvafiq olaraq kəndin bərpası ilə bağlı aparılan tikinti işləri barədə məlumat verib. Bildirilib ki, Cəbrayıl rayonunun digər yaşayış məntəqələri kimi Cocuq Mərcanlı kəndi də 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərək yandırılıb, dağıdılıb. Azərbaycan Ordusunun 1994-cü ilin əvvəlində keçirdiyi Horadiz əməliyyatı zamanı kənd erməni işğalından azad olunub. 2016-cı ilin Aprel döyüşlərinə qədər Lələ təpə strateji yüksəkliyi Ermənistan ordusunun işğalı altında olduğundan Cocuq Mərcanlı kəndində yaşayış qeyri-mümkün idi. Lakin Azərbaycan Silahlı Qüvvələrinin yüksəkliyi azad etməsindən sonra kənddə təhlükəsiz yaşamaq imkanı yaranıb.

Diqqətə çatdırılıb ki, işğalçı Ermənistan ordusu tərəfindən tamamilə dağıdılan Cocuq Mərcanlıda birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi həyata keçirilib. Cocuq Mərcanlıdan olan 50 ailə öz doğma yurduna dönüb. Kənddə tikinti işlərinin növbəti mərhələsində daha 100 fərdi yaşayış evinin, uşaq bağçasının, tibb məntəqəsi və klub-icma mərkəzi üçün binaların, poçt binasının və digər zəruri infrastruktur obyektlərinin tikintisi də başa çatıb. Həmin evlərə də Cocuq Mərcanlı kəndindən olan digər məcburi köçkünlər köçürülüb.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov layihəni Koreya-Azərbaycan dostluq münasibətlərinin göstəricisi olduğunu qeyd edərək, Cocuq Mərcanlı kənd sakinlərini yaddan çıxarmadıqları üçün Koreya Respublikasının Azərbaycandakı səfirliyinə və Koreya Şərq Təbabəti Klinikasına təşəkkürlərini bildirib.

Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Çanq-gyu Cocuq Mərcanlıda aparılan tikinti-bərpa işlərindən və kənd sakinlərinin doğma yurdlarına qayıtmasından məmnunluğunu ifadə edib. Koreya Respublikasının Azərbaycandakı səfirliyinin keçirdiyi məcburi köçkünlərə dəstək tədbirlərinin iki ölkə arasında dostluq münasibətlərinin inkişafına öz töhfəsini verəcəyinə ümid etdiyini bildirib.

Klinikanın direktoru İsmət Qasımzadə bildirib ki, bu tədbir SEBA Koreya Şərq Təbabəti Klinikasının sayca beşinci layihəsidir. Layihə çərçivəsində 250-dən çox Cocuq Mərcanlı sakini Koreya Şərq Təbabəti Klinikasının şərq və qərb üsulları ilə müayinə və müalicə olunub..

Sonra şagirdlər arasında keçirilən inşa yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb. Məktəbin bütün şagirdlərinə Koreya səfirliyi, "Samsung Engineering" və SEBA Koreya Şərq Təbabəti Klinikası tərəfindən məktəb ləvazimatları, qol saatları və "TEAS PRESS" Nəşriyyat evinin kitabları hədiyyə edilib.

Cocuq Mərcanlı kənd sakini Şahsuvar Şirinovun evində qonaq olan Səfir Kim Çanq-gyu sonra Şuşa məscidinin bənzəri olan Cocuq Mərcanlı kənd məscidini ziyarət edib.

## İstixanalarda və arıçılıq təsərrüfatlarında istehsal edilən məhsullar "Cocuq Mərcanlı" brendi ilə satışa çıxarılacaq



İqtisadiyyat Nazirliyinin və Türkiyənin Azərbaycandakı səfirliyinin birgə həyata keçirdiyi layihələr çərçivəsində artıq Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaradılmış istixanalarda və arıçılıq təsərrüfatlarında istehsal edilən məhsulların satışı həyata keçirilir.

Oktyabr ayının 3-də Cocuq Mərcanlı kəndində Cəbrayıl rayon İcra hakimiyyətinin və İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı, Türkiyənin Azərbaycandakı səfirliyinin, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA), İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin (TÜİB), "Ziraat Bank Azərbaycan" ASC-nin nümayəndələrinin və sahibkarların iştirakı ilə tədbir keçirilib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dövlət başçısının iqtisadi inkişaf kursuna uyğun olaraq, ölkədə qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması və sahibkarlığın inkişafının sürətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Azərbaycan Prezidentinin yeni həyat bəxş etdiyi Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində birgə layihələrin icrasının Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin daha bir nümunəsi olduğunu vurğulayan Sahib Məmmədov bələ layihələrin icrasının kəndlərdə məşğulluğun təmin olunmasında, rayonun sosial-iqtisadi inkişafı sahəsində mühüm əhəmiyyətə malik olduğunu qeyd edib, layihə çərçivəsində yaradılmış təsərrüfatlarda istehsal edilən məhsulların artıq "Cocuq Mərcanlı" logosu altında satışa çıxarıldığını diqqətə çatdırıb.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və TİKA-nın Bakı nümayəndəliyinin proqram koordinatoru Teoman Tiryaki Türkiyə-Azərbaycan əlaqələrinin uğurla inkişaf etdiyini, Cocuq Mərcanlıda birgə icra olunan layihələrin bölgədə kənd təsərrüfatının inkişafında əhəmiyyətini vurğulayıb, belə layihələrin bundan sonra da reallaşdırılacağını diqqətə çatdırıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov çıxışında kiçik və orta sahibkarlığın inkişafı istiqamətində agentliyin həyata keçirdiyi tədbirlərdən danışıb, Cocuq Mərcanlıda fəaliyyət göstərən sahibkarların dəstək xidmətləri ilə tam əhatə olunacağını bildirib.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Cocuq Mərcanlıda həyata keçirilən layihələrin kəndin inkişafına və sakinlərin məşğulluğunun təmin edilməsinə mühüm töhfə olduğunu qeyd edib.

Tədbir çərçivəsində "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Dövlət Aqrar Ticarət Şirkəti" MMC, "Azərsun Holdinq", "Veysəloğlu" şirkətləri Cocuq Mərcanlıda fəaliyyət göstərən istixana və arıçılıq təsərrüfatlarında istehsal edilmiş məhsulların satın alınmasını həyata keçirib. Bu təsərrüfatlardan əldə olunacaq məhsulların satışına dəstək göstərilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Dövlət Aqrar Ticarət Şirkəti" MMC ilə Cocuq Mərcanlı fermerləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu da imzalanıb.

Tədbir çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən Cocuq Mərcanlı kənd orta məktəbinə Neftçala Sənaye Məhəlləsində istehsal olunan "Xəzər" avtomobili hədiyyə edilib.

Cocuq Mərcanlı sakinləri göstərilən böyük diqqət və qayğıya görə dövlət başçısına dərin minnətdarlıqlarını bildiriblər.

Sonra tədbir iştirakçıları istixana və arıçılıq təsərrüfatlarında istehsal edilmiş məhsullarla və suvenir istehsalı müəssisəsinin tikintisi ilə tanış olublar.

***HİDAYƏT SƏFƏRLİ***
***Baş redaktor müavini***

"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN
№ 11- 12 (6803-6804) 18 oktyabr 2018-ci il


# Şəhid Ruhin Qəhrəmanovun xatirəsi anıldı



**Aprel şəhidi Ruhin Əşrəf oğlu Qəhrəmanovun doğum günü münasibətilə rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərliyi və rayon ictimaiyyətinin nümayəndələri şəhidin məzarını ziyarət ediblər.**

Əslən Cəbrayıl rayonundan olan şəhid kəşfiyyatçı 10 oktyabr 1994-cü ildə Biləsuvar rayonunun ərazisində yerləşən 2 saylı çadır şəhərciyində dünyaya gəlib.

2011-ci ildə Cəbrayıl rayon Ramiz Xudiyev adına Minbaşılı kənd tam orta məktəbin 11-ci sinfini bitirib, həqiqi hərbi xidmətə yollanıb. Xidmətini başa vurduqdan sonra könüllü olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarında qulluq edib.



Ruhin Qəhrəmanov 2016-cı ilin aprel ayının 2-də Lələtəpə yüksəkliyinin düşmən işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub və ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

**"Xudafərin"**

**11 sentyabr 2018-ci il tarixdə Cəbrayıl rayon təhsil işçilərinin ənənəvi Sentyabr konfransı keçirilmişdir.**



Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edən konfrans iştirakçıları abidə önünə gül dəstələri düzərək Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad etdilər.

4 saylı qəsəbə klubunda davam etdirilən konfransda rayon Təhsil şöbəsinin müdiri Validə Həsənovanın

# Təhsil işçilərinin sentyabr konfransı

keçən dərs ilinin yekunları və yeni dərs ilində qarşıda duran vəzifələrə dair geniş hesabat məruzəsi dinlənilmişdir.

Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək ölkəmizdə təhsilin inkişafına göstərilən yüksək dövlət qayğısından danışmış, demokratik cəmiyyətimiz üçün hərtərəfli düşüncəyə malik sağlam fikirli, yüksək qabiliyyətli, zəngin istedada malik gənclər yetişdirmək və onları cəmiyyətin aparıcı qüvvəsinə çevirməyin vacib bir iş olduğunu vurğuladı.



Rayonun təhsil işçilərini yeni dərs ilinin başlanması münasibəti ilə təbrik edən İcra başçısı onlara daha əzmlə çalışmağı və yeni-yeni uğurlar əldə etməyi arzuladı.

Təhsil Nazirliyinin nümayəndəsi Almaz Əsgərova, 8 saylı məktəbin məzunu Günay Hüseynova və digər çıxış edənlər yeni dərs ilinin başlanması münasibəti ilə rayonun təhsil işçilərini təbrik edərək, uğurlar arzuladılar.

Sonda qəbul imtahanlarında 600- dən yuxarı bal toplayıb ali məktəblərə qəbul olan məzunlara hədiyyələr təqdim olundu.

**"Xudafərin"**

# Ailədə və eldə ağsaqqal



**Köhnə kişilərdən söhbət düşəndə Nəriman müəllimin siması gəlib durur gözlərimin qarşısında. Sözü ötkəm, yol-izin bilən, gənclərə yol göstərən xeyirxah bələdçi olmaq kimi keyfiyyətlərin daşıyıcısı olmaq və s. köhnə kişiliyin xarakterik əlamətlərindəndir.**

2006-cı ilin noyabrında mən namizədlik dissertasiyamı müdafiə edib, alim adı alandan sonra Rayon İcra Hakimiyyətinin Nərimanov rayonunda yerləşən qərargahına getmişdim. O vaxt mən "Xudafərin" qəzetinin baş redaktor müavini idim. Bu vaxt nurani simalı bir kişi mənə yaxınlaşıb görüşdü, əllərimi sıxdı və məni alim adı almağım münasibəti ilə təbrik edib, bundan çox sevindiyini dedi. Mənə göstərdiyi bu diqqətə görə təşəkkürümü bildirdim. Kim idi bu nurani çöhrəli köhnə kişi? Düzü, onu çox görmüşdüm, rayon icra hakimiyyəti aparatının strukturunda işlədiyini də bilirdim. Amma şəxsən tanışlığımız yox idi. Ona görə də mənə qarşı bu cür həssas və diqqətli yanaşan kişinin kim olduğunu əlaltdan gizlincə, daha doğrusu, utanıb çəkinə-çəkinə ətrafdakı yoldaşlardan soruşub-öyrəndim. Ona görə utanırdım ki, vaxtaşırı olaraq görüşdüyüm, salamlaşdığım bu köhnə kişi mənə qarşı bu qədər sayğı ilə yanaşdığı halda, mən heç bu müddət ərzində onun adını da öyrənə bilməmişdim... Bəli, bax o kişi RİH-nin Başçısının Şükürbəyli kənd üzrə ərazi nümayəndəsi kimi tanıdığımız Əsədov Nəriman Şirvan oğlu idi.

Bu günkü mərtəbəyə hansı yollardan keçərək gəlib sualına rəsmi cavab kimi qısaca onun tərcümeyi -halına üz tutmaq istərdik.

01 aprel 1951-ci ildə Cəbrayıl rayonunun Şükürbəyli kəndində anadan olub. 1957-1967-ci illər doğulduğu kənddə orta məktəb təhsili alıb. 1967-ci ildə Gəncə şəhərindəki S.Ağamalıoğlu adına Kənd Təsərrüfatı İnstitutunun mexanikləşdirmə fakültəsinə daxil olub, 1973-cü ildə mühəndis-mexanik ixtisasına yiyələnib.

Nəriman Şirvan oğlu Əsədov 1970-ci ilin avqustundan 1973-cü ilin iyununadək 836 saylı Yol Tikinti İdarəsində çilingər, 1973-cü ilin iyulundan 1976-ci ilin sentyabrına qədər isə 32 saylı Yol İstismar İdarəsində mühəndis-mexanik işləyib.

1976-1983-cü illər ərzində 131 saylı Texniki peşə məktəbində müəllim işləyən Nəriman Əsədov 1983-cü ilin mayından 1987-ci ilin iyununa kimi - 4 il Cəbrayıl rayon Aqrar Sənaye Birliyində baş mühəndis kimi fəaliyyət göstərir.

Göründüyü kimi, Nəriman müəllimin fəaliyyət göstərdiyi əmək sahəsi yeknəsək olmayıb, ayrı-ayrı dövrlərdə müxtəlif sahələri əhatə edib. Bu da elə-belə deyildir. Birincisi, bu cəhət onun bir insan kimi hər yerdə ona bəslənilən etimadı doğrultmasının əlamətini əks etdirir. İkincisi isə odur ki, Nəriman Əsədov həyatın girintili-çıxıntılı yollarının içindən keçərək, bərkə-boşa düşərək bərkiyib-bişib. Əlbəttə ki, bu bərkiyib-bişmə hər şeydən öncə, onun öz içindən gəlib, öz daxili dünyasının təbiətindən yaranıb. Əgər belə olmasaydı, gəncliyindən tapşırılan bütün vəzifələrin öhdəsindən layiqincə gələ bilməzdi və ona da bu qədər çoxçeşidli-rəngarəng iş sahələrində işləməyi etibar eləməzdilər. Deməli, bizim Nəriman müəllim həm savadlı mütəxəssis kimi öz işinin öhdəsindən gələn bacarıqlı işçi, həm də kişilərə xas olan sözündə və işində qətiyyət göstərə bilən gözəl insan olub. Bax bu kimi mübariz keyfiyyətləri ona əsas verib ki, o vaxtlardan da ən mühüm vəzifə sayılan bir pilləyə ucalıb: 1987-ci ilin iyununda Şükürbəyli kənd Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilib. 1992-ci ilin yanvarından isə RİH-nin Şükürbəyli kənd ərazi nümayəndəliyində nümayəndə işləyir.

Onu da qeyd edək ki, 1990-cı ildə kənd sovetinin deputatı olmaqla həm də rayon sovetinin deputatı seçilmişdir. Bundan başqa, dəfələrlə yaxşı işinə görə Fəxri fərmanlarla təltif olunan Nəriman Əsədov həmçinin 1995-2009-cu illərdə RİHB yanında şuranın üzvü olmuşdur.

Bəli, istər o dövrdə XDSİK-nin sədri olmaq, istərsə də indiki vaxtda RİH-nin təmsilçisi kimi ərazi nümayəndəsi vəzifəsini icra etmək dövlət qulluğunda çox şərəfli peşə sayılıb. İstər rəsmi şəkildə, istərsə də qeyri-rəsmi olaraq, yəni el-oba arasında da bu vəzifə ağsaqqallıq sayılıb. Nəriman müəllim 1987-ci ildən indiyədək 6 kəndi özündə birləşdirən Şükürbəyli kənd ərazi nümayəndəsi olmaqla həm də belə demək olarsa bu əraziyə daxil olan 3500 nəfərdən çox əhalinin rəsmi ağsaqqalıdır. Respublikamızın 32 rayonuna dağılıb-səpələnmiş bu 3500 nəfərlə əlaqə saxlaya bilmək, müəyyən mənada onları bir araya gətirə bilmək-nəzarət eləyə bilmək, başqa sözlə, ağsaqqallıq missiyasını öz öhdəsinə götürə bilmək özü bir hünər istəyir, bu hünəri isə ancaq elə Nəriman müəllim kimi köhnə kişilər göstərə bilirlər. El arasında bir deyimməsəl var: "Kişilik xərc istəyir". Bu, xalq məntiqidir, yəni quru-quru lovğalanmaqla, boş-boşuna adamın özünün özünə "mən kişiyəm"deməsi ilə iş bitmir, kişi gərək hər çətinliyə sinə gərsin, kişi gərək yeri gələndə el-oba yolunda öz varından, pulundan keçməyi bacarsın, Hatəm-Tai kimi imkansızlara səxavət göstərə bilsin.

Bax bizim Nəriman müəllim bu 18 illik məcburi köçkünlük dövründə "əlinə dəmir əsa alıb, ayağına dəmir çarıq geyib" dərvişsayaq el,oba- öz inzibatçılığında olduğu soydaşlarımızla əlaqə saxlayır, dərd-sərləri ilə maraqlanır, müşküllərinə əlac edir...

Nəriman müəllim həm də gözəl ailə başçısıdır. Üç övladının hamısı ali təhsil alıb. Beş *(hazırda yeddi - müəllif)* nəvəsi var, baba kimi onların da qayğısına qalır... Bir sözlə, ictimaiyyətdə qazandığı yüksək nüfuzun da kökü elə onun ailədə qazandığı böyük hörmətdən gəlir. Necə deyərlər, öz evində-ailəsində ağsaqqallıq edə bilməyən adam heç vaxt camaata ağsaqqal ola bilməz. Deməli, Nəriman müəllim bir oğul kimi, bir ər kimi, kişi kimi, ata kimi, baba kimi öz evlərindən, doğma ocaqlarından ağsaqqallıq məktəbinin yolunu keçərək doğulduğu kəndin-kəsəyin ağsaqqalı olmaq dərəcəsinə yetişmişdir. "Köhnə kişi" tituluna sahib olmuşdur. Bəli, Nəriman müəllim həm ailədə, həmdə eldə ağsaqqal olan kişilərdəndir.

***Bu günlərdə Nəriman müəllimin yaşının 60-cı baharı tamam oldu. Bu münasibətlə səmimi-qəlbdən onu təbrik edirik, möhkəm cansağlığı arzulayırıq, ömrün uzun olsun deyirik. Allah Sizin kimi kişiləri bizlərə çox görməsin, Nəriman müəllim. Elin-obanın üstündən kölgəniz əskilməsin!..***

**Şakir Əlifoğlu,**
*("Yeni liqa" qəzeti, № 14 (86), 27.04-03.05.2011)*

# MƏKTƏBLİLƏRİMİZ GƏLƏCƏYİ KODLAŞDIRIRLAR




Biləsuvar rayonu 7 saylı köçkün qəsəbəsində fəaliyyət göstərən Cəbrayıl rayonu İ. Tahirov adına Mehdili kənd tam orta məktəbində baş tutan "Code for Future" (Gələcəyi kodlaşdır) təşəbbüsünün ilk layihəsində ətraf qəsəbələrdən 322 uşaq ərizələrini təqdim etsə də, onlardan cəmi 45 nəfər təlim öncəsi test imtahanından uğurla keçərək layihədə iştirak hüququ qazandı.

Qeyd edək ki, Azərbaycanın bir qrup maarifçi gəncinin səyləri nəticəsində ərsəyə gələn "Code for future" təşəbbüsünün ilk layihəsi olan məcburi köçkün uşaqlar üçün İKT üzrə intensiv tədris düşərgəsinə bu ilin iyul ayında start verilib.

11 tam orta məktəbdən seçilən 45 nəfər VII-IX sinif şagirdləri kodlaşdırma dərsləri almaqla yanaşı, sosial bacarıqlarının və liderlik qabiliyyətlərinin inkişaf etdirilməsi üzrə təlimlər aldılar. Ödənişsiz olan tədris düşərgəsində kodlaşma sahəsində uşaqlar üçün həm əyləncəli, həm də daha asan qavrana bilinən "HTML", "Scratch", "CSS" və "Python" kimi proqramlaşdırma dilləri tədris edilib.

Tədris düşərgəsində təlim keçənlər "Code Academy"nin peşəkar təlimçiləri arasından seçilmiş 6 nəfər müəllim olub. İştirakçılardan ən yaxşı nəticələr göstərən Zəhra Behbudova, Məhəmmədəli Həsənov, Hüseyn Mərdanlı və Leyla Aslanova sonda notbukla mükafatlandırılıb. Həmçinin informasiya texnologiyaları sahəsində xüsusi bacarıqları ilə seçilən 3 nəfər iştirakçı- Hüseyn Mərdanlı, Zəhra Behbudova və Məhəmmədəli Həsənov "Code Academy"də pulsuz təhsil almaq imkanı qazanıb. Seçilən şagirdlər arasında qızlar həm saylarına həm də göstərdikləri yüksək nəticələrə görə seçilib.

6 saylı qəsəbə məktəbinin 11 yaşlı şagirdi Mərdanlı Xədicə: "Komputerə böyük həvəsim var idi. Bura gələndən sonra komputeri daha da sevməyə başladım. Artıq oyun yaza bilirəm. Kodlaşdırma dərslərinə qədər ümumiyyətlə heç nə bilmirdim, amma indi sərbəst kod yaza bilirəm. Birinci özüm üçün oyun yazacam, daha sonra isə onu daha da təkmilləşdirib başqaları üçün də edəcəm. Gələcəkdə insanların daha rahat istifadəsi üçün elektron kitabxana yaratmaq fikrim var. Orada çoxlu hüquq kitabları olacaq. Marağım var hüquqşünaslığa. Gələcəkdə özümü hüquqşünas kimi görürəm. Bunun üçün çox çalışmalıyam. Hətta daha çox".

5 saylı qəsəbə məktəbinin 10 yaşlı şagirdi Türkanə Kərbalıyeva : "Böyüyəndə hakim olmaq istəyirəm. Marağımı cəlb etdiyi üçün bir az araşdırmaq istədim. İnternetdə axtarış elədim, amma məlumatlar çətin başa düşülən dildə idi. Mən də istəyirəm ki, kiçik bir web sayt



yaradım, hakim və vəkillər kimlərdir, nə iş görür və s. haqqında uşaqların da başa düşəcəyi dildə məlumatlar yerləşdirim ki, onlar da başa düşsün".

11-ci qəsəbə məktəbinin 9 yaşlı şagirdi Əlizadə Elçin: "Pis adamlarla mübarizə aparmaq istəyirəm. Onları tutmaq üçün polis olacam. Filmlərdə də görmüşəm ki, polislər insanlara necə yardım edir. Mən də gələcəkdə köməyə ehtiyacı olanlara yardım etmək istəyirəm".




6 saylı qəsəbə məktəbinin 13 yaşlı şagirdi Mərcan Məmmədova: "Ən böyük arzum beyin cərrahı olmaqdır. Babam uşaq həkimidir. Onun insanlara necə yardım etdiyini hər dəfə görürəm. Təsəvvür edəndə ki, beyin cərrahı olmaqla insanları ölümdən xilas edə bilərəm, lap həvəslənirəm. Bu fikir elə bil mənə güc verir, özümə inamı artırır. Ən böyük arzumdur insanlara yardım edim. Hazırki hədəfim məktəbi bitirdikdən sonra Türkiyədə universitetə daxil olub öz sevdiyim peşəyə mükəmməl formada yiyələnməkdir".

6 saylı qəsəbə məktəbindən qatılan Sənan Ağalı: "Məktəbi bitirdikdən sonra təhsilimi Türkiyədə davam etdirmək istəyirəm. Hədəfim gələcəkdə beyin cərrahı olmaqdır. Televizorda "Doktorlar" serialı gedirdi. Həmin serialda həkimin göstərdiyi işləri görəndə beyin cərrahı olmaq həvəsi yarandı. Düzü heç bilmirəm bu hədəfə çata biləcəm, ya yox. Amma həvəsdən düşmək istəmirəm, ona görə də nə bacarıramsa etməyə çalışıram".

Elnur Fərzəliyev 14 yaş, 6-cı qəsəbə: "Evimizdə heç vaxt kompyuter olmayıb. Bu düşərgənin həyatıma daha çox təsir edən məqamlarından biri də o oldu ki, həm kompyuterdə yazmağı öyrəndim. Həm də sərbəst olaraq proqramlaşdırmağı öyrənə bildim. Bəlkə, düşərgə bir neçə ay davam etsəydi daha çox bilgi öyrənə bilərdim. Gələcəkdə mühəndis olmaq istəyirəm, amma görürəm ki, hər şey artıq internetin üzərində cəmləşib. Düşünürəm ki, internetsiz həyatı təsəvvür etmək mümkün deyil."

Kəlbalıyev Səyyad, 13 yaş, 5 saylı qəsəbə: "Kompyuter oyunları həmişə mənə maraqlı gəlib. Artıq sadə oyunları hazırlamağı bacarıram. Burada öyrəndiklərimi bir az da təkmilləşdirməliyəm ki, daha da maraqlı oyunlar hazırlaya bilim. Düşünürəm ki, gələcəkdə məktəb şagirdlərinə də




bu barədə nə isə öyrədə bilərəm. Əvvəl çətin görsənsə də, indi sadə olduğunu bildim."

Yay düşərgəsinin bağlanış tədbirinə ABŞ-ın ölkəmizdəki səfirliyi, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi, Cəbrayıl Rayon İcra Hakimiyyəti, UNİCEF və digər yerli və xarici qurumların nümayəndələri və rəhbərləri qatılmışdı.

Mərasimdə iştirak edən Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov mütəmadi olaraq keçirilən dərslərlə şəxsən maraqlandığını və bu kimi təşəbbüslərin uşaqların gələcək fəaliyyətinə müsbət təsir göstərəcəyinə şübhə etmədiyini bildirib.



"Layihə bizim uşaqların intellektinin inkişafına yüksək təsir göstərəcək. Qısa müddətli olsa da, təsirinin hələ uzunmüddətli bəlkə də ömürlük olacağına inanıram," - icra başçısı Kamal Həsənov deyib. Cənab Başçı ölkəmizdə təhsilin inkişafına yüksək dövlət qayğısı göstərildiyini, Prezident İlham Əliyevin məktəblilərin İKT üzrə müasir biliklərə yiyələnməsinin zəruriliyi məsələsinə böyük diqqət yetirdiyini vurğulayıb, maarifçi gənclərin təşəbbüsünü yüksək dəyərləndirib və onlara təşəkkürünü bildirib. Qeyd edib ki, "Code for Future" təşəbbüsünün ilk layihəsi olan məcburi köçkün uşaqlar üçün İKT üzrə intensiv tədris düşərgəsinin yaradılması təqdirəlayiq hadisədir. Texnologiyanın inkişaf etdiyi dövrdə bir qrup cəbrayıllı məktəblinin İKT və proqramlaşdırma üzrə yiyələndiyi biliklər onların gələcək təhsili və iş fəaliyyəti üçün çox faydalı olacaq.

Layihə ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən yerli icmaların inkişafı və inklüziv tərəqqinin artırılması məqsədilə dəstəklənib. Tədbirdə iştirak edən səfirliyin ictimai əlaqələr şöbəsinin müdiri Mişel Peterson, "Code for Future" təşəbbüsünün həmtəsisçisi Xalisə Şahverdiyeva təşəbbüskarları, təlimçiləri və uşaqları layihənin uğurla başa çatması münasibətilə təbrik etdilər. Daha sonra qaliblərin mükafatlandırılması mərasimi oldu.

Layihənin uğurlu alınmasında həmtəsisçilər Xalisə Şahverdiyevanın, Şəms Mustafayevanın, Cəbrayıl Rayon Təhsil Şöbəsinin aparıcı məsləhətçisi Ağabala Əliyevin, müəllimlərdən Köçəri Tumasovun, Etiram Dadaşlının, Elşən Niftəliyevin, Əfsanə İbrahimovanın, təlimçilərdən Samir Kərimovun, Turan Abdurəhmanovanın, Nigar Cəfərovanın, Bəşir Əzizovun, Lalə Məmmədovanın, Əmrah Hüseynovun və başqalarının əməyini qeyd etmək lazımdır.

Pilot layihə olan "Gələcəyi kodlaşdır" təşəbbüsünün Azərbaycanın digər regionlarında da keçirilməsi planlaşdırılır.

***HİDAYƏT HÜMBƏTOĞLU,***
***Qabaqcıl təhsil işçisi***

# VƏTƏNİN CANDAŞ ŞAİRİ



## ƏLİ RZA XƏLƏFLİ - 65

Əli Rza Xələfli şairdir, yazıçıdır, publisistdir, redaktordur, müəllimdir, natiqdir, başqa sözlə, hərtərəfli insandır. Dünyanın hər üzünü görən, bilən, tanıyan insandır. Onun haqqında danışmaq da, yazmaq da çətin deyil, ona görə ki, gözələ al da geysə yaraşdığı kimi, şal da geysə yaraşdığı kimi, Əli Rza müəllimə də nə desən, hansı tərifisənanı yağdırsan, götürəcək, yaraşacaq. Ancaq çətinlik ondadır ki, gərək onu anlaya biləsən, nə dediyini, nə yazdığını, nə düşündüyünü anlaya biləsən. Bir də ki, onun çoxcəhətli yaradıcılığı haqda danışa bilmək üçün onları bir yerə yığıb-yığışdıra biləsən.

Rəhmətlik M.Ə.Sabir deyirdi ki, şairəm, çünki vəzifəm budur əşar yazım, gördüyüm nikü-bədi eyləyim izhar yazım Beləcə öz yazmaq missiyasının nədən ibarət olduğunu bəyan edirdi oxucusuna. Bu yöndən Ə.R.Xələfli də şair kimi necə yazdığını bəyan etməklə özünün iç dünyasına nüfuz edə bilməkdə oxucuya ipucu verir:

Ömür keçdi yaxşı-yaman arası,
Hər sözümdə göynəm-göynəm yarası,
Neçə dərdin cərgə-cərgə sırası,
Həyatımı yuxu kimi yozuram,
Mən şeiri ağrı ilə yazıram.

Rədif misra vasitəsilə təkrar-təkrar beyinlərə ötürür ki, "mən şeiri ağrı ilə yazıram". Bəs bu ağrı nə ağrısıdır? Can ağrısımı, qəlb ağrısımı, baş ağrısımı?.. eh, denən nə fərqi var ki, ağrı elə ağrıdır daa Bədən hardan ağrısa, ora elə candır. Ona görə bir yerin ağrıyanda, xalqımız müdrikliklə o ağrıların hamısını birləşdirib - bir sözlə ifadə eləyib "can" deyir və bu sözü uzadaraq "caan" deyərək də bu sözün altında bədənin ağrıyan nahiyəsinin - canın qadasını almağı ("ağrın-qadan mənə gəlsin" mənasında) dilinə gətirib, sanki bununla ağrıyan can sahibinin ağrısına şərik olmağa çalışır. Bəli, ağrının kökü candan-qandan gəlir. Amma bu ağrını doğuran səbəblər nədir? Deyəcəksiniz ki, bu suala cavab tapmaq da həkim işidir, həkim deyilik ha! Amma bir deyimimiz də var: hər kəs öz canının həkimi olmalıdır. Bu məntiqdən boy göstərsək, onda elə öz canımızla yanaşı can dediklərimizin (can deyib qadasın aldığımız doğmalarımızın) də canının ağrısından xəbər bilməli, xəbərdar olmalıyıq. Onda bizim hər birimizin üzərinə can ağrısından baş çıxara bilən bir həkimlik missiyası düşdüyünü tam yəqinləşdirərik. Bəli, biz əgər bir-birimizə can desək-can eşitsək, onda bir-birimizin canının ağrısını - duyğusunu özümüzdə yaşada, gəzdirə bilən canbir-qəlbbir candaşlar ola bilərik. Candaşımız - qandaşımız olan Ə.R.Xələflinin ağrısının səbəbini də məhz bu prinsiplə - o ağrını öz canımızda gəzdirib-yaşatmaqla tapa bilərik. Onda görərik ki, o ağrı hamımızın ağrısı-acısıdır və bəlkə də, elə hamımızın ağrısını-acısını canına yığıb ağrı kimi gəzdirir. Bəlkə, elə bu səbəbdəndir ki, Ə.R.Xələfli kitablarından birinin adını da "Ağrı" qoyub. O kitab ki, publisistik düşüncələrin məhsulu olaraq yazılıb. Bəs onda deyəcəksiniz ki, axı Əli Rza müəllim "mən şeiri ağrı ilə yazıram" deyir. Elə bu məqamda o sirr də üzə çıxır ki, bəli, təkcə şeiri yox, bütün yazdıqlarını o, ağrı ilə yazır, özü də böyük Ağrı ilə, ona görə ki, o ağrı təkcə onun fərdi yaşantılarından doğan ağrı deyil, bütövlükdə hamımızın canının-ruhunun içindən gəlib-keçən Ağrıdır. Ağrı dağı







böyüklükdə olan böyük Ağrıdır. Bu ağrının adı Vətən ağrısı, millət ağrısıdır: "Neçə dərdin cərgə-cərgə sırası"dır. Vətənin ağrıyan yeri-ağrı nöqtəsi isə Qarabağdır. Bu üzdən də üzü Qarabağa Vətən nəğməsi oxuyur o "Üzü Qarabağa" ("Vətən", 2017) adlı şeirlər, qəsidələr, dördlüklər, bayatılar və poemalarının toplandığı kitabında. Kitabın redaktoru professor Bədirxan Əhmədli də bu münasibətlə kitabdakı ön sözündə qeyd edir ki, "Kitabdakı ilk şeiri də "Üzü Qarabağa"dır, bir qədər də dəqiqləşdirsək, özünün, könlünün də üzü Qarabağadır. Zatən o, heç Qarabağı bir an da unutmamış, ondan ayrılmamışdır, bütün varlığı, düşüncəsi ilə Qarabağı yaşatmaqdadır". Bəli, hörmətli alimin sözünə qüvvət, Ə.R.Xələfli Vətənin Qarabağ adlı ağrısına can deməklə Qarabağımızla candaş olub, canından - ruhundan qopan yaradıcılığında Qarabağımızı müdam yaşatmaqdadır. Elə bu məqamı diqqət obyektinə gətirən Bədirxan müəllim bir qədər sonra göstərir ki, "onun bu kitabda yer alan, Qarabağa yazılan və yazılmayan bütün şeirlərində bir yurd - Vətən həsrəti var və o, daim üzü Vətənə doğru yol gedir". İndi Ə.R.Xələflinin öz dilindən eşidək onun Vətənə üz çevirməsini:

Əzizlədim, saxladım sinəmdə neçə dərdi,
Saz istədim deməyə, Tanrı qələm göndərdi.
Dərviş donunda gəldi Qurbani buta verdi:
"Sənə yurddu, Vətəndi yar üzü Qarabağa".

Fikir verin: "Sinəsində Vətən dərdini əzizləyən" şair o dərdə, o ağrıya can deməklə ürəyinin başında oxşayıb - əzizləyir, Dədə Qurbani bu dərdi - bu Vətəni, Qarabağı ona "buta verir". Necə ki, Abbas Səhhət "Könlümün sevgili məhbubu (butası - Ş.A.) mənim Vətənimdir, Vətənimdir, Vətənim" deyə haray çəkirdisə, eləcə də Ə.R.Xələfli doğma yurdu Qarabağı Dirili Qurbaninin ruhu vasitəsilə buta kimi ərməğan alır, Qurbanini yetirib-bitirən Cəbrayıl torpağına, Qarabağımıza özünün sonsuz tükənməz məhəbbətini ifadə edir və bu yolla oxucularına da bu məhəbbəti bölüşüb - paylaşmağı tövsiyə edir. Ə.R.Xələfli nəinki sosial aləmə car çəkib həmvətənlərini, hətta bioloji mühitdə yaşayan bütün canlıları - Qarabağdan insanlarla birlikdə perik düşmüş fauna aləmini də üzü Qarabağa dəstə-tifaq yön tutub getməsini arzulayır:

*Halay vursun, hay salsın təbərzinli abdallar,*
*Yağıların başına qaya salsın Tantallar;*
*Qatar vursun, yön alsın göy üzündə qartallar,*
*Qızılquş, şahin, quzğun, sar üzü Qarabağa.*

Xalqımızın "Vətənə gəldim, imana gəldim" deyimi var. Əli Rza müəllim də "Çağırsa Həccin yolu, Arazboyu karvan tut" deyərək yurddaşlarımızı Arazboyunca maşın karvanları ilə Həcc yolu timsalında Vətən yoluna - Qarabağ (Cəbrayıl) yoluna səfərbər olmağa səsləyir, bu yolda "yaddaşı bələdçi tut, ovsarında yaddaşı sarvan tut" ki, atababa gorgahı olan mənzilinə gedib yetişə biləsən deyir:

Məkkə Xudafərindi, öz canını qurban tut,
Azanda qibləni gör, dur üzü Qarabağa.

Beləliklə, bir daha təkidlə qeyd edir ki, bizim Məkkəmiz elə vətənimiz - Xudafərindi, yolu-irizi azsaq, Məkkə kimi - qiblə kimi Xudafərinə - üzü Qarabağa tərəf səmt alaq, "öz canını bu yolda qurban tut" - şəhid et ki, vətən uğrunda şəhadətə yetişmək şərəfdir:

Qəzəbinlə sök, dağıt açmaq üçün yolları,
Hiylə, kələk toxusa tor, üzü Qarabağa.

Beləcə, hiylənin, kələyin toxuduğu tor qarşısında aciz qalma, qəzəbinlə-hikkənlə üzü Qarabağa gedən yolların bağlı tilsimini sök, dağıt deyir. Əlbəttə, təkcə düşmənə qəzəb, nifrət bəsləməklə kifayətlənmək olmaz, ana yurdu - doğma torpağı - Arsağı, Qarabağı düşmən tilsimindən azad etmək üçün həm də ürəyində ulu yurda sonsuz məhəbbət hissi aşıb-daşmalıdır. Məhz burada bu amil də şair təxəyyülündən yan keçməyib:

*Qanadlan yurda sarı, keç quşqonmaz salları,*
*Gözlərinlə oxşa, öp yol üstündə kolları.*

Yurda sarı necə qanadlanmaq olar, quşqonmaz dağları necə aşıb-keçmək olar? Bəs kolları-kosları necə öpmək, oxşayıbəzizləmək olar? kimi sualların cavabına gəlincə isə demək lazımdır ki, məhz bütün bunlar Vətənə sonsuz sevginin müqabilində reallaşa bilir. Ürəkdə tüğyan edən vətən sevgisi insana ilahidən bir fərəh dolu qanad bəxş edər, insan vətən torpağına qanadlanıb uçmağa həvəslənər və bu həvəs, istək uğrunda da düşmənə qarşı coşan nifrətlə qarşına çəkilən bütün sədləri-maneələri aşıb-keçə bilərsən. Təki bu yolda üzün də Qarabağa olsun, könlün də, qəlbin, istəyin də!.. Bax, Ə.R.Xələflinin aşılamaq istədiyi ideya da elə budur.

Professor Bədirxan Əhmədli "Üzü Qarabağa" kitabının əsas leytmotivini belə ifadə edir: "Şair nədən yazır-yazsın, içindəki ağrı-acının nədənini üzə çıxarmağa çalışır, ruhunu, duyğusunu ifadə edir, lakin heç zaman bir dairədə fırlanmır, yeni-yeni poetik düşüncələrini son dərəcə orijinallıqla oxucu ilə bölüşür. Əgər bu, bir nəsr əsəri olsaydı, əvvəldən axıra bir süjet xəttini izləmiş olardıq. Ancaq Əli Rza Xələfli poeziyası son dərəcə rəngarəng, çoxsəslidir. Bu, həm şeirin mahiyyətindən irəli gəlir, yəni şeir qısadır, dili çevikdir, hiss və duyğuları cəmi bir neçə misrada ifadə edə bilir, həm də hər şeir özü bir əsərdir və bunlara bir əsər kimi baxmaq, təhlil etmək lazımdır".

Amma professorun bu fikirlərinə rəğmən onu da qeyd edim ki, "Ə.R.Xələflinin poeziyası nə qədər rəngarəng, çoxsəsli olsa da", onları hardasa nizama düzməklə nəsr əsərlərinə xas olan müəyyən bir süjet xətti ilə də birləşdirmək olar. Əslində, heç bizim bu şeirləri bir süjet - mövzu ətrafında cəmləşdirib düzməyimizə də çox ehtiyac qalmır. Çünki Əli Rza müəllim bir şair olmaqdan əlavə, həm də bir redaktor, bir naşirdir və bu sahədə kifayət qədər təcrübəsi olan bacarıqlı mütəxəssisdir. Bu səbəbdən də o, şeirlərini də oxucusuna çiy halda - pərakəndə şəkildə, nizamı pozulmuş halda təqdim etmir. O özü kitablarının, əslində, həm redaktoru, həm naşiri, həm tərtibatçısı, həm də hamımızın bildiyimiz kimi müəllifidir. Buna görə də o, nəinki kitabındakı materialları, həmçinin kitabın içərisində ayrı-ayrı başlıqlar altında təqdim elədiyi ayrı-ayrı yarımfəsilləri - hissələri belə mövzu və məzmunca qruplaşdırıb, sistemləşdirib verir. Bu, həm oxuculara əsərin oxunmasında rahatlıq yaradır, həm də biz tədqiqatçıların fikir söyləməkdə işini asanlaşdırır. Məhz birincisi bu məqamda onun şeirlərini nəsr əsərlərinə xas tərzdə bir ideya, eyni mövzu ətrafında izləmək şansı verir. İkincisi isə hörmətli professorun özünün də yuxarıda qeyd etdiyi başlıca amil: "şair nədən yazıryazsın, içindəki ağrı-acının nədənini üzə çıxarmağa çalışır, ruhunu, duyğusunu ifadə edir" qənaətindən çıxış etsək, biz Ə.R.Xələflinin "içindəki ağrı-acının" əsas mənbəyinin vahid bir nöqtədən - Vətən yanğısından rişələndiyini nəzərə alsaq, onda biz bu ağrıacıların ayrı-ayrı forma və şəkillərdə ipə-sapa düzülüb oxucuya təqdim edildiyinin fərqində olarıq. Yəni Ağrı birdir və bu, "Üzü Qarabağa" yönəlik ağrıdır, ağrımıza şəfa tapılması istəyidir.

**Şakir ALBALIYEV,**
**filologiya üzrə**
**fəlsəfə doktoru, dosent**

## XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ - 160

# Gəmilərimiz beynəlxaq əhəmiyyətli yükdaşımalarda- dünya sularında üzür

“Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir”.

*Heydər ƏLİYEV*





”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti iqtisadiyyatda köklü struktur islahatlarının davam etdirilməsi, dəniz gəmiçiliyi sahəsində yerli və beynəlxalq daşımaların artırılması, ölkənin rəqabət qabiliyyətinin və tranzit potensialının gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında 22 oktyabr 2013-cü il tarixli 6 nömrəli və ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında 10 yanvar 2014-cü il tarixli 213 nömrəli Sərəncamlarına əsasən, respublikada mövcud olan iki böyük donanmanın - Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyi və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xəzər Dəniz Neft Donanmasının birləşdirilərək yenidən təşkil olunması yolu ilə yaradılıb.

”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin tərkibinə nəqliyyat donanması ilə yanaşı, ixtisaslaşdırılmış donanma və gəmi təmiri zavodları daxildir. Avropa - Qafqaz - Asiya (TRASEKA) nəqliyyat dəhlizində bağlayıcı rolunu oynayan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Transxəzər istiqamətində yüklərin və sərnişinlərin daşınması ilə eyni zamanda, dənizdə həyata keçirilən neft və qaz əməliyyatlarına müvafiq nəqliyyat xidmətləri göstərir.

Bu fəaliyyətin tarixi çox zəngindir. Azərbaycanda gəmiçiliyin inkişafı neft sənayesinin yaranması və tərəqqisi ilə sıx bağlıdır.

XIX əsrdə Bakıda neft hasilatının sürətli artımı Xəzərdə gəmiçiliyin inkişafına təkan verib. Təbii ki, həmin dövrdə neft və neft məhsullarının daşınması üçün yeni üzən vasitələr tələb olunurdu. Təsadüfi deyil ki, dünyada ilk neftdaşıyan ”Aleksandr” barjı 1873-cü ildə Xəzərdə istismar edilib. Dünyada ilk tanker - ”Zərdüşt” də (1878-ci ildə inşa edilib) Xəzərdə səfərlər edib. İlk daxiliyanma mühərrikli ”Vandal” (1903-cü il), ilk reversivli iki mühərriklə çalışan ”Delo” (1908-ci il) gəmilərində üzmək də Xəzər dənizçilərinin qismətinə yazılıb. Xəzər Dəniz Gəmiçiliyinin əsası 1858-ci il mayın 21-də ”Qafqaz və Merkuri” Səhmdar Cəmiyyətinin yaradılması ilə qoyulub.

Dənizlə daşınan yüklərin həcmi artdıqca Xəzər dənizinin sahillərində limanların da sayı artır. Yeni körpülər inşa edilir, anbarlar tikilir, kranlar qurulur Donanmanın genişlənməsi gəmi təmiri bazasının yaradılmasını da zərurətə çevirir və 1866-cı ildə ”Qafqaz və Merkuri” Səhmdar Cəmiyyətinin Bakıda mexaniki zavodunun bünövrəsi qoyulur. İnkişaf etməkdə olan donanmanın kadrlara tələbatını ödəmək məqsədilə 1881-ci ildə Bakı dənizçilik sinifləri təşkil edilir.

Sonrakı illərdə gəmiçiliyin donanması ölkədə və xaricdə inşa edilmiş yeni tipli gəmilərlə zənginləşir. Xəzər dənizçilərinin ixtiyarına ”çay-dəniz” tipli tankerlər, pambıq, taxta-şalban və s. daşıyan gəmilər verilir. 1962-ci ildə Xəzər Dəniz Nəqliyyatı Layihə-Axtarış Elmi-Tədqiqat İnstitutu mütəxəssislərinin layihəsi əsasında o dövr üçün Avropada ən böyük Bakı - Türkmənbaşı gəmi-bərə keçidi işə salınır.

Xəzər Dəniz Neft Donanmasının da tarixi şanlı səhifələrlə zəngindir. SSRİ Nazirlər Sovetinin 31 oktyabr 1949-cu il tarixli ”Xəzərdə dəniz neft istehsalının inkişafı haqqında” Sərəncamı ilə ”Azərneft” birliyi, onun tərkibində isə SSRİ Neft Sənayesi Nazirliyinin 4 noyabr 1949-cu il tarixli əmri ilə ”Üzən vasitələr” idarəsi yaradılır. Xəzər Dəniz Neft Donanmasının inkişafı məhz bu tarixdən başlanır. Həmin dövrdə ”Artyomneft” və ”Stalinneft” dəniz qazma trestlərinin üzmə vasitələri yeni yaradılmış idarənin tərkibinə keçirilir. Bunlar əsas etibarilə ”Transportnik”, ”Qəbələ”, ”BMK-90” tipli kiçik həcmli katerlər, özühərəkətetməyən 20 tonluq üzən kranlar və barjlar idi. SSRİ Neft Sənayesi Nazirliyinin 22 yanvar 1953-cü il tarixli əmri ilə ”Üzən vasitələr” idarəsi ”Xəzərdənizneftdonanma” idarəsinə çevrilir.

Əsası 1949-cu ildə qoyulan Xəzər Dəniz Neft Donanmasının inkişafı Ümummilli Lider Heydər Əliyevin istər sovet, istərsə də müstəqillik dövründə hakimiyyətdə olduğu illərdə daim diqqət mərkəzində olub. Məhz Ulu Öndərin şəxsi təşəbbüsü ilə təkcə 1975-1980-ci illərdə Neft donanmasının tərkibinə 75 növdə 400-dən çox ağır yük qaldıran kran gəmisi, boruçəkən gəmilər və digər gəmi növləri daxil edilib. Bununla da, Xəzərdə ən böyük və unikal ixtisaslaşdırılmış donanmanın güclü təməli qoyulub.

Ulu Öndərin sarsılmaz iradəsi ilə həyata vəsiqə qazanan və layiqli davamçısı Prezident İlham Əliyevin məharətlə davam etdirdiyi yeni neft strategiyası Xəzər Dəniz Neft Donanmasının qarşısında da yeni üfüqlər açdı. Belə ki, ”Əsrin müqaviləsi” çərçivəsində nəzərdə tutulmuş bir sıra mühüm işlərin yerinə yetirilməsində Xəzər Dəniz Neft Donanmasının kəşfiyyat, kran, təchizat, yedək gəmilərinin xidmətlərindən geniş istifadə edilməyə başlandı, donanmanın sıralarına yeni gəmilər qatıldı. Son dövrlərdə ”AXDG” QSC-nin Xəzər Dəniz Neft Donanmasının balansına daxil edilən yeni ”Qubadlı”, ”Mərdəkan”, ”Şüvəlan” və s təchizat-yedək gəmiləri ölkə başçısının bu sahəyə olan xüsusi diqqətinin sübutudur.

Bugün ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən donanmaları vahid bir orqanizmdə birləşdirərək, qarşıya qoyulan vəzifələri yüksək səviyyədə və operativ yerinə yetirmək əzmindədir. Xəzər Dəniz Gəmiçiliyinə məxsus gəmilər Volqa - Balt kanalı vasitəsilə dünya sularına çıxır.

Son beş ildə ” Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinə həmyerlimiz Rauf Göyüş oğlu Vəliyev rəhbərlik edir.

Rauf Göyüş oğlu Vəliyev 1965-ci ildə Cəbrayıl rayonunun Çərəkən kəndində anadan olmuşdur. 1990-cı ildə Leninqrad Su Nəqliyyatı İstitutunu, 2004-cü ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını bitirmişdir.

1990-1997-ci illərdə ”Xəzərdənizneftdonanma” İdarəsinin idarəetmə aparatında mühəndis-konstruktor, gəmi tikintisinə nəzarət qrupunun mühəndisi, qrup rəhbəri, İdarənin xarici əlaqələr şöbəsinin rəisi, 1997-ci ildən isə İdarə rəisinin xarici əlaqələr üzrə müavini vəzifələrində işləmişdir. 2006-2007-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin aparatında Donanma ilə iş üzrə şöbə rəisi, 2007-2013-cü illərdə ARDNŞ-nin Baş ofisində Nəqliyyat İdarəsinin rəisi vəzifələrində çalışmışdır.Evlidir, iki övladı var.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə Rauf Göyüş oğlu Vəliyev ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədri təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2011-ci il tarixli Sərəncamı ilə ”Əməkdar mühəndis” fəxri adına layiq görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılması ilə yanaşı, bir bazardan asılılığının aradan qaldırılması üçün xarici sularda fəaliyyəti də daim diqqət mərkəzində saxlanılır, bununla bağlı mütəmadi iş aparılır. Bu, yeni daimi iş yerlərinin açılması, beynəlxalq yükdaşımalarda rəqabətədavamlılığın təmin edilməsi, xarici sularda ölkəmizin təmsil və təbliği baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu il ”Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti üçün olduqca əlamətdardır. Xəzər Dəniz Gəmiçiliyinin yaradılmasından 160 il ötür. Bu münasibətlə Cəmiyyətin sədri, həmyerlimiz Rauf Göyüş oğlu Vəliyev başda olmaqla bu böyük kollektivi ”Xudafərin” qəzetinin yaradıcı kollektivi və oxucuları adından, bütövlükdə Cəbrayıl rayon ictimaiyyəti adından təbrik edir, gələcək işlərində uğurlar arzulayırıq.

***”XUDAFƏRİN”***

# BABAMIN MƏNALI ÖMÜR YOLU



**Babalar elə yaşamalıdırlar ki, nəvə və nəticələr onların həyatlarından örnək götürərək yaşasınlar. Həm də onların həyat yolu gələcək nəsillər üçün başucalığı gətirsin. Çox xoşbəxtəm ki, mənim babam da örnək olası bir ömür yaşayıb. Onun haqqında eşitdiyim xoş sözlər daim məni qürurlandırır, həm də belə bir kişinin nəvəsi olduğum üçün məsuliyyətimi də artırır. Bu hissləri tək mən deyil, babamın səkkiz övladı - altı oğul, iki qız balası, on səkkiz nəvəsi, on üç nəticəsi də keçirirlər. Babam gözəl ailə başçısı olub. Nənəm Hacıyeva Səmayə Nurməhəmməd qızı ilə uzun və mənalı ömür yaşayıb.**

Babam Hacıyev Nəsib Rza oğlu 1934- cü ildə anadan olub.1951-ci ildə Mehdi Mehdizadə (M.Qorki) adına orta məktəbi bitirmisdir.Əsgəri xidmətini bitirdikdən sonra Cəbrayıl milis şöbəsinə milis nəfəri kimi işə qəbul olunub. Bir müddət işlədikdən sonra Mərdəkandakı milis məktəbinə daxil olub və 1958-ci ildə orani bitirib. Bu illərdə Nəsib Hacıyev idmanla da məşğul olub və Cəbrayılın futbol üzrə yığma komandasında ən məhsuldar oyunçulardan biri kimi tanınıb. O, 1959- 1962-ci illərdə Bakı Dövlət Universitetində təhsilini davam etdirir. Lakin ailə vəziyyəti ilə əlaqədar olaraq təhsilini basa catdıra bilmir. Amma işgüzarlığı ilə seçildiyinə görə 1965-ci ildə onu irəli cəkərək Cəbrayıl Pasport Masa rəisinin müavini vəzifəsinə təyin edirlər. Sonralar pasport masa rəisi, rayon daxili işlər şöbəsinin rəis müavini vəzifələrində çalışmışdır.1986-cı ildən 2001-ci ilə qədər şöbənin mühasibi işləmişdir. Polis sıralarında uzunmüddətli qüsursuz və işgüzar işinə görə dəfələrlə Daxili İşlər Nazirliyinin təşəkkürlərinə, pul mükafatlarına layiq görülmüş, medallarla təltif edilmişdir.

Nəsib Hacıyev 2004-cü il martın 15-də dünyasını dəyişmiş, Sabirabad qəbiristanlığında dəfn edilmişdir.

Babam dünyasını dəyişəndə onuncu sinifdə oxuyurdum. Mən o zaman bir daha anladım ki, insanlar heç nəyi unutmurlar, yaxşı iş və əməlləri daim yadda saxlayırlar. Xoşbəxt o kəslərdir ki, həyatda özlərindən sonra yaxşı iz qoyurlar. Mənim babam kimi...

***SƏNAN RZAYEV***

## Arzu Çələbinin əbədiyyətə qovuşmasından 11 il ötür



# Ümidimiz idin, Arzu Çələbi!

*Əcəl vaxtsız aldı səni əlimizdən*

Arzu xanım Çələbilər nəslinin gənc nümayəndəsi olsa da, əsl övliyalıq, ağbirçəklik nümayiş etdirərək, bir çox gənclərimizə ailə qurmaqda yardımçı olmuş, xeyir-dua vermişdi. El arasında bir deyim var: "Gedəcək yerimiz". Arzu Çələbi dar macalda, ağır ayaqda gedəcək yerimiz-ümid qapımız idi. Arzu Çələbinin oktyabrın 28-də bazar günü dünyasını dəyişməsilə gedəcək yerimiz kəsildi, inamla üz tutub getdiyimiz bir ümid qapısından ayağımız kəsildi...

1993-cü ilin yay imtahan sessiyasını verirdim. Bakıda xəstəxanada müalicə olunan əmim qızı Əntiqəni yoluxmağa getmişdim. O vaxt ondan "Suğra Çələbinin rəhmətə getdiyini bilirsənmi?" sualını eşidəndə donub qaldığımı, şok halına düşdüyümü görəndə təz sözünü yantarmış, dediyi ifadəni yasalamış, sözünü geri götürmüşdü: - Dəqiq bilmirəm, yəqin yalandır, demişdi. Mən də uşaqlara məxsus sadəlövhlüklə inanmışdım, amma hər halda deyilən qara xəbər məni tutmuşdu, ona görə də sessiyanı qurtarıb Bakıdan Cəbrayıla- Pirəsəd kəndində evimizə gələrkən, ataanamdan birinci bu sözü Suğra Çələbinin rəhmətə gedib-getmədiyini soruşmuşdum. Onda bu xəbərin doğru olduğunu biləndə içimdə bir ümid qırılmışdı...

Bu dəfə də tərs kimi yenə də Arzu Çələbinin rəhmətə getdiyini Əntiqədən eşitdim. Dolayısı ilə məndən soruşdu ki, deyirlər Arzu Çələbi rəhmətə gedib, bir söz eşitməmisən ki? Rəngimin-rufumun dəyişilib, haldan-hala düşdüyünü görəndə, "deyəsən yalandır", deyib sözünü geri götürmək istədi. Mən də tezcənək inandım, dedim ki, həə, yalan olar, xəstə olduğuna görə yəqin kimsə ağzından bir qələt çıxardıb.

Amma ürəyimdə narahatçılıq yarandığından, bir qırağa çəkilib Saray qəsəbəsində yaşayan xalam oğlu Qorxmaza zəng çaldım, istədim ki, dolayısı ilə bu xəbəri öyrənəm. Çünki Qorxmazgildən 2-3 saat olardı ki, çıxmışdım. Soruşdum ki, "Ay Qorxmaz, bu saat hardasan, evdəsənmi?" Qorxmaz nə dediyimi qəsdən təzədən soruşduqda, mən də təkrar eyni sualı verdim. İstəyirdim ki, deyəm Qorxmaza ki, get bir Arzu Çələbini yolux, yoxla, ordan da onun səhhəti ilə bağlı mənə bir xəbər elə. Amma dilimin ucuna yığdığım bu kəlmələr ağzımda qaldı. Sözdən söz qanan, arif adam olan xalam oğlu Qorxmaz artıq başa düşmüşdü ki, mənim bu qara xəbərdən xəbərim var ki, sözü təkidlə soruşuram ki, hardasan? Çünki onu elə indicə evlərində qoyub gəlmişdim, ciddi bir hadisə baş verməsə, harda ola bilərdi ki?

O da acı xəbər olsa da, birbaşa cavab verdi: - Arzu Çələbigildəyəm, sən də durma gəl, bu ağır xəbəri yəqin ki, eşitmisən...

Arzu Çələbinin ölüm xəbərini hamı ağır kədər içində göz yaşları ilə qarşıladı. Dəfn mərasiminə gələn insanları hələ demirəm, heç maşınların sayı-hesabı yox idi. "Üç" adlı hüzr mərasimində isə səhərdən axşamacan ölkənin hər yerindən maşın-maşın adamlar axışıb gəlirdilər. Yasxana gəlib-gedənlərlə dolub-boşalırdı. Bütün bunlar hamısı Arzu Çələbiyə və bütövlükdə Çələbilər ocağına olan böyük xalq məhəbbətinin, inamının göstəricisi idi. Bütün bunlar Arzu xanımın 40 yaşında həyatdan vaxtsız köçməsinin bütöv bir el matəminə dönməsinin nümayişi idi...

Hamı ürəyində bir niyyət tutub qapına böyük ümidlə, inamla gələrdi, Arzu Çələbi. Ümidimizi sənə bağlamışdıq, diləyimizin ahın yaxın bəndələrindən olan, Allah yanında sözü eşidilən duaçımız idin, Arzu xanım.

Bir mələk paklığı var idi səndə, bir uşaq saflığı var idi ürəyində, bir düha işığı var idi beynində; ürəyin uşaq ürəyi kimi saf, təmiz, beynin düha sahiblərinin beyni kimi zəkalı idi, Arzu Çələbi.

Bir körpə qız uşağının məsumluğu ilə bir dünyagörmüş ağbirçəyin müdrikliyi birləşmişdi varlığında.

Həmişə maşınla evinin ətrafından ötüb-keçərkən, üzümü qibləsayağı evinə tərəf - sənə sarı tutub dua eləyirdim.

1-incisi Allahdan sənə şəfa diləyirdim, sonrasa ürəyimdəki niyyətimin həyata keçməsini sənə və Allaha xitabən ürəyimdə pıçıldayırdım.

Sən bu gün cismən həyatda yoxsansa da, ruhun bizimlədir, bu gün ruhuna müraciətən duamızı oxuyuruq. Allah sənə rəhmət eləsin, yerin behiştlik olsun, Arzu Çələbi!

**Şakir Albalıyev,**
**("Dədə Qorqud" qəzeti,**
**№ 7; 7-14 dekabr 2007-ci il)**

# Atasından görüb-götürən, dayısına oxşayan oğul

**Mən Kəmaləddin müəllimlə bir dəfə Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı Respublika Ağsaqqallar Şurasının Heydər Əliyev Mərkəzində təşkil elədiyi rəsmi dövlət mərasimində rayonumuzun təmsil olunduğu nümayəndə heyətinin tərkibində bir yerdə iştirak etmişik. Bir dəfə də Azərbaycan Dövlət Televiziyasının studiyasında bir yerdə çəkilişdə olmuşuq. Bunlardan başqa da bizim Kəmaləddin müəllimlə ayrı-ayrı tədbirlərdə birgə iştirakımız olub. Hər dəfə də yaddaşımda özünün ağayana hərəkəti, nəcib siması, ağsaqqal görkəmi ilə iz salıb. Mən həmişə insanların daxili kimliklərini öyrənməyə görə onları psixoloji davranış üsullarına görə gizlin müşahidə edir və ümumi nəticələr çıxarıram. Yəni bu yolla insandakı seçə bildiyim müsbət keyfiyyətin də, iraq olsun, neqativ cəhətin də hardan qaynaqlandığının fərdi-psixoloji səbəblərini müəyyənləşdirirəm.**



Bəs Kəmaləddin Musayevin təbiətindəki ağsaqqallıq keyfiyyəti hansı çağlar çeşmədən qaynaqlanır? "Oğul atadan görməyincə süfrə yaymaz, qız anadan görməyincə öyüd almaz" məzmunlu "Kitabi-Dədə Qorqud" hikmətindən, "Oğul dayıya oxşar" məsəlimizdən yapışsaq, onda bu sualın cavabına yaxınlaşa bilərik. Bunun üçün öncə onun kim olduğuna diqqəti yönəltməliyik. 31 oktyabr 1947-ci ildə Cəbrayılın Çərəkən kəndində anadan olan Kəmaləddin müəllimin atası Həsən Əziz oğlu Musayev Şuşa Pedaqoji Texnikumunu, sonra isə BDU-nun tarix fakültəsini bitirib, Çərəkən, Daşkəsən, Şükürbəyli, Horovlu kəndlərində məktəb direktoru işləmiş ziyalı olub. Böyük Vətən müharibəsində Berlinədək döyüş yolu keçib. Müharibədən sonra isə uzun müddət rayon Partiya Komitəsində çalışıb. Kəmaləddin müəllimin anası Əsmər Aslan qızı Musayeva isə kolxozçu kimi əmək rəşadətləri göstərmiş aslan tinətli xanım olub. Deməli, Kəmaləddin müəllimin bu müsbət mənəvi-iradi keyfiyyətləri onun halalhümmət bir ailə tərbiyəsi görməsindən başlayıb. Üstəlik, atası arxa cəbhədə əmək fəaliyyəti, həm də ön cəbhədə döyüş fəaliyyəti göstərərək həyatda bərkiyib-bişmiş ziyalı-ictimaiyyətçi olub və bu həyat dərsləri zatən də övladın tərbiyəsinə və dünyagörüşünə sirayət edib. İkinci bir tərəfdən isə Kəmaləddin müəllimin dayısı isə respublikada bacarıqlı rəhbər və insanlıq etalonu kimi tanınmış, müxtəlif vəzifələrdə, o cümlədən Beyləqanda raykom katibi işləmiş Vahid İsmayılovdur. Bax bu mənada Kəmaləddin Musayevin təbiətindəki ağsaqqallığın hardan rişələndiyi bəlli olur: o, atasından görüb bu ağsaqqallıq nümunəsini, o, dayısına oxşayıb müdrikliyində. Burası belə, bu tərəfdən müəyyən məqamlara aydınlıq gətirdik. Lakin onun bu nəcib xarakteri təkcə bu görüb-götürməklə kifayətlənmir. Digər amillər də bu sırada mühüm rol oynayır. Bu, birbaşa onun keçmiş olduğu yaşam yolunda formalaşıb-təkmilləşmə yolu keçməsində reallaşan səbəblərlə müşayiət olunur. İndi də bu məqamların üstünə gələk. "Atamızın ölümündən sonra evdə bütün işlər onun çiyninə düşdü. İki bacısını, qardaşını oxutmaq, ailə-uşaq sahibi eləmək, bütün bunları o, səbrlə, vicdanla yerinə yetirdi. Özgələrinə yaxşılıq edəndə uşaq kimi sevinirdi. Rayonun ağsaqqallarıyla daim ünsiyyət saxlayırdı". Bu sözləri pedaqogika üzrə fəlsəfə doktoru olan qardaşı Əziz Musa söyləyir və bu informasiyada bir mühüm anı nəzərdən qaçırmaq olmaz. Atadan sonra atalıq funksiyasını öz üzərinə götürməsi Kəmaləddin müəllimin çiyninə daha bir qayğı yükü qoyub. Bu ailə qayğısı da onu bir daha bir qayğı da çəkməyə vadar edib, qayğı-dərd insanı qocaldır deyirlər. Amma bu qocalma sadəcə cismən qocalma deyil, həm də mənən qocalmadır-yəni ucalma, ağsaqqallıq mərtəbəsinə qalxmaqdır. Bax, bir fərdi psixoloji keyfiyyət kimi o, qocalığı-ucalığı, ağsaqqallığı həyatda bu cür qazanıb. Ailə yükünün ağırlığını çəkməklə. Amma təkcə bununlamı? Yenə yox. Onun özünün də sevib-seçdiyi həyat yoldaşı vardı, Soltanlı kəndindən olan Mahmudova Məmləkət Əhməd qızı. Avtandil, Günay, Aytən adlı övladları və 6 nəvəsi olan Kəmaləddin müəllim həm də nümunəvi ailə başçısıdır. Bu fərdi ailə qayğılarının üstünə ictimai qayğılar da yüklənəndə, onda qayğı yükünün nə qədər ağır və məsuliyyətli, həm də şərəfli olduğu aydın şəkildə təsəvvürdə canlanır. Özünün, ailəsinin qayğılarına el qayğıları da yüklənən bu insanın bir daha fərdi tale yolu timsalında ictimai aləmlə necə təmasda olduğunu bilmək üçün bir daha onun ömürnaməsindən etüdlərə nəzər yetirək. 1954-cü ildə Çərəkən kənd 8 illik məktəbinə, sonra isə Cəbrayıl rayon M. Qorki adına orta məktəbə gedib, orta təhsil alır, 1972-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitutunun zootexnik fakültəsini bitirir, Cəbrayıl rayon baytarlıq idarəsinin baş entimoloqu, 1 il sonra isə rayon Kənd Təsərrüfatı idarəsinin Həmkarlar Təşkilatının sədri işləyir. 1973-1974-cü illər hərbi xidmətdə olur. 1974-cü ildə Soltanlı kəndində S.Vurğun kolxozunda baş zootexnik işləyir. 1977-ci ildə rayonun ən böyük təsərrüfatlarından olan M.F.Axundov kolxozuna sədr seçilir. Respublikada sovxozlar yaradılanda isə onu C. Cabbarlı adına sovxoza direktor göndəriblər. 1983-cü ildə C. Əhmədov adına sovxoza direktor müavini təyin olunan Kəmaləddin Həsən oğlu Musayev 1984-cü ildə Cəbrayıl rayon yemçilik laboratoriyasının direktoru olur. 1986-cı ildən isə Cəbrayıl, Laçın, Qubadlı, Zəngilan, Füzuli rayonlarının birləşmiş laboratoriyasının direktoru kimi fəaliyyət göstərir. 1993-2018- ci illər isə Cəbrayıl Aqrokimya laboratoriyasının rəisi olub. Həmçinin o, Cəbrayıl- Qubadlı seçki dairəsində rayon seçki məntəqəsinin sədri, habelə rayon Ağsaqqallar Şurasının üzvüdür.

Fikir verin: Kəmaləddin müəllim orta məktəbi bitirib ali təhsilə yiyələndikdən sonra həyatın ayrı-ayrı sahələrində məsul ictimai vəzifələrin altına çiyin verib, ona etimad olunan-tapşırılan bütün çətinliklərin öhdəsindən layiqincə-qədərincə, qədərindən də artıq dərəcədə gəlməyi bacarıb. Bu, özlüyündə bir daha onu göstərir ki, o, həm fərdi qayğıların, həm ailə, tayfa qayğılarının, həm də el qayğılarının əziyyətini çəkməli olub və öz tale yolunda bütün bu qayğılı sınaqlardan üzüağ çıxıb. Bu, həm də onun xaraktercə, əqidəcə prinsipial, dönməz xarakterə malik olan qətiyyətliliyinin ifadəsidir. Mən həmişə yeri düşəndə deyirəm ki, kişidə, ağsaqqalda həm də bir qətiyyətlilik, sözükeçərlilik olmalı, iradə olmalıdır. Çünki sözü keçməyən, iradəsi zəif olan adamı heç ağsaqqal kimi də saymazlar. Amma burda bir məqamı unutmaq olmaz ki, sözün ötkəm olması, iradənin güclü olması və qalib gəlməsi üçünsə ən başlıca şərt həmin məsələlərdə ədalətlilik, düzgünlük və ümumi ictimai mənafenin üstün tutulması prinsipləri olmalıdır. Əks təqdirdə, üzgörəti-gözgörəti mən ağsaqqalam, yaşca da hamıdan böyüyəm deməklə boş-boşuna çığır - bağırtı ilə heç bir işi aşırmaq olmaz və nəticədə nəinki ağsaqqallıq etmək olar, əksinə, el ifadəsilə desək, cırtqozluq etməkdən uzağa getmək olmaz. Bu prinsipləri ona görə burda xatırladıram ki, hər adamın üstünə ağsaqqallıq, böyüklük yükünü yıxmaq olmaz, çünki bu yükə dov gəlməyə, bu yükün altından çıxa bilməyə səbr, iradə və s. kimi ağsaqqallıq keyfiyyətlərini canda-qanda gəzdirmək-yaşatmaq tələb olunur. Bu şərtlər olmadıqda, özündənrazılıq səviyyəsi həddini aşıb cırtqozluq səviyyəsinə yetişər. Bax beləcə, Kəmaləddin Musayev atasından, dayısından əxz elədiyi, görüb-götürdüyü böyüklük, müdriklik, ağsaqqallıq keyfiyyətlərini həm də həyat və tale yollarında, fərdi və ictimai həyatın müxtəlif cür ağrılı-acılı məngənələrində qoruyub-yaşada bildi, atasının, dayısının ağsaqqallıq yolunun daşıyıcısı, davamçısı oldu.

Ağsaqqal adam həyatın çətinliklərinə sinə gərdiyi kimi, müdriklik nümayiş etdirdiyi kimi öz sözündə-danışığında da daim özgələrinə örnək olmalıdır. Bu mənada Kəmaləddin müəllimin danışığından həmişə hikmətamiz kəlamlar tökülür. Onunla söhbət vaxtı bir hadisəni xatırladı. Dedi ki, 1980-ci ildə o vaxt Azərbaycan KPMK-nın Birinci katibi işləyən Heydər Əliyevə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi. Bu münasibətlə keçirilən rayonlararası müşavirədə Xalq şairi Cabir Novruz, Cəbrayıl rayon PK-nın birinci katibi Kamal Ağayev və onlarla məsul vəzifəli şəxslər iştirak edirdilər. Çoxları nitq söylədi. Mən də yerimdən söz alıb çıxış etmək istədim. Katib Kamal Ağayev pencəyimdən xəlvətcə çəkib aşağı oturmaq istədi ki, bu cür mötəbər məclisdə, Heydər Əliyevin qabağında nə danışacaqsan ki? Bunu görüb müşahidə edən Ulu Öndər işarə ilə mənə söz verilməsinə şərait yaratdı. Mən xitabət kürsüsünə çıxıb dedim:-Yoldaş Heydər Əliyev, günəş bir damla büllur suda əks olunduğu kimi, sizin də döşünüzdən asılan o kiçik Qızıl Ulduzda Azərbaycan zəhmətkeşlərinin namuslu əməyi tərənnüm edilmişdir.

Salondan gurultulu alqışlar səsləndi, Heydər Əliyev də mənim bu sözlərimə əl çaldı və sonra da qayıdıb zarafatla Cabir Novruza dedi ki, Cabir Novruz, bax belə deyərlər, belə yazarlar.

Bəli, bizim Kəmaləddin müəllim beləcə sözünün-davranışının yerini bilən insandır. Hələ vaxtilə Cəbrayılda olarkən onun vergili insan olmasını söyləyirdilər. Haqqında "Dünyanın 16-cı adamı" adlı yazı da dərc olunmuşdu. 2006-cı ildə müqəddəs Həcc ziyarətində olub, Hacı titulu almışdı.Bunlar isə onun bir din adamı, iman-inam sahibi olmasından xəbər verir. Namaz əhli olmaq, Ulu Yaradana iman gətirmək və bu sahədə də insanlara nümunə olmaq da böyüklüyün, ağsaqqallığın təzahür formalarından biridir. Çünki insanlar böyük kimi qəbul etdiyi, özünə ağsaqqal bildiyi şəxsdə bu cür mühüm əxlaqi-mənəvi keyfiyyətləri gördükdə, ona daha da sidq-ürəklə bel bağlayır, onu özlərinə etibarlı arxa hesab edirlər.

Bəli, elin gözü tərəzidir və bu gözlərlə ağsaqqallığın da meyarları ölçülüb-dəqiqləşdirilir. Kəmaləddin Musayev həyatda belə bir ölçüyəülgüyə təndürüst hesablanmış şərəfli ömür yolu yaşayır. Allah cansağlığı və uzun ömür versin!

**Əlifoğlu Şakir**







**İsmayıl İmanzadə, şair, Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin rəhbəri**

### VƏTƏN ANA, TORPAQ NAMUS

Dua etdim, ulu Tanrım dadıma yetdi,
Ərən yurdum nər bilәkli oğul böyütdü.
Yadda saxla, babalardan qalan öyüddü -
Vətən ana, torpaq namus, sevgi əmanət.

Dədəm Qorqud zəfərdədir şərəf - şan-dedi,
Şəhid ruhu-yerdə qalmaz nahaq qan-dedi.
Xudafərin haray çəkdi, Savalan dedi -
Vətən ana, torpaq namus, sevgi əmanət.

Qarı düşmən, varlığımdır anam Qarabağ,
Gözünü aç, tarixımə bir də yaxşı bax.
Eşitdinmi, öz türkcəmdə söylədi hər dağ -
Vətən ana, torpaq namus, sevgi əmanət.

Kitab kimi varaqladım Kürlə Arazı,
Əcdadımın Qobustandan gəldi avazı.
Babək döyüş bayrağına qanıyla yazıb -
Vətən ana, torpaq namus, sevgi əmanət.

Vətən oğlu igid əsgər, sabahın xeyir,
Səhər mehi təbəssümlə qapını döyür.
Göyçə səndən nicat umur, Zəngəzur deyir -
Vətən ana, torpaq namus, sevgi əmanət.

Mən üç rəngli bayrağımla keçmişəm oddan,
Vətən sözü müqəddəsdir hər cürə addan.
Ata millət, ana millət, çıxarma yaddan -
Vətən ana, torpaq namus, sevgi əmanət.

# Təbrik edirik!



Bu günlərdə Vahid İsmayılov adına Çərəkən kənd tam orta məktəbin direktoru Zamiq Mətləb oğlu Qurbanov rayon Təhsil Şöbəsinin müdiri təyin edilmişdir. Bu münasibətlə Zamiq müəllimi ürəkdən təbrik edir, rayonumuzun təhsilinin inkişaf etdirilməsində və yüksək nailiyyətlərə çatdırılmasında uğurlar arzulayırıq!

*"Xudafərin"*

## Məktəblinin rəsm dünyası



Zahidə Məmişova 15 saylı tam orta məktəbin VIII sinif şagirdidir, dərs əlaçısıdır. Onun həm də gözəl əl qabiliyyəti var, rəsm çəkməyi çox sevir. Əl işlərindən ibarət nümunələr məktəbin foyesini bəzəyir. O, əslən rayonumuzun işğaldan azad olunmuş yeganə kəndindən - Cocuq Mərcanlıdandır.




Zahidə Məmişovanın bu istedadı müxtəlif təşkilatlar tərəfindən dəfələrlə qiymətləndirilib. Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə keçirilən məktəb üzrə rəsm müsabiqəsində I yeri tutduğuna görə məktəb rəhbərliyi, Dövlət Müstəqilliyimizin 25-ci ildönümü münasibətilə rayon üzrə keçirilən rəsm müsabiqəsində I yeri tutduğuna görə Cəbrayıl Rayon Gənclər və İdman İdarəsi, 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Mənim Azərbaycanım" mövzusunda rəsm sərgisində uğurlu iştirakına görə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Fəxri Fərmanlar və Diplomla təltif olunub.

Zahidə Məmişova arzularla yaşayır. Yüksək nəticə əldə edərək ali məktəbə qəbul olmaq arzusundadır. O, gələcəyin istedadlarından biri olmaq üçün öz üzərində səylə çalışır, verilən tapşırıqlara məsuliyyətlə yanaşır. Bilir ki böyük uğura gedən yol gərgin zəhmətdən keçir. Bu yolda uğurlar səninlə olsun, məktəbli qız!

*"Xudafərin"*

# Xatirələrdə yaşayacaqdır



Əliyev Firat Baloğlan oğlu 1 avqust 1950-ci ildə Cəbrayıl rayonun Maralyan kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1957-ci ildə Maralyan kənd orta məktəbin 1-ci sinfinə daxil olub, 1967-ci ildə bitirmişdir. Yaşıdları kimi qayğısız uşaqlıq illəri geridə qalan Firat özünü keşməkeşli həyatın qoynuna atmış, 1967-1969 - cı illərdə Cəbrayıl rayonunda Lenin adına kolxozda kolxozçu işləməklə əmək fəaliyyətinin bünövrəsini qoymuşdur. O, təhsil almağa da düşünürdü. Bunun üçün o, 1969-1971-ci illərdə Bakı Plan-uçot texnikumunda mühasibat uçotu ixtisası üzrə təhsil alır. Əvvəlcə kolxozçu kimi çalışdığı kollektivə qayıdıb, 1971-1976-cı illərdə Lenin kolxozunda böyük mühasib, baş iqtisadçı vəzifələrində çalışmışdır.

1976-1985-ci illərdə isə Lenin kolxozunda Azad Partiya Komitəsinin katibi vəzifəsində işləməklə həm də ictimai siyasi həyatda da fəaliyyət göstərməyə başlayır. Elə bu istiqamətdə özündəki gücü, bacarığı hiss edən F.B. Əliyev 1978-1984-cü illərdə Bakı Ali Partiya məktəbində qiyabi təhsil alıb, Ali və Ali Partiya siyasi ixtisası almışdır. Ali təhsilli siyasi kadr kimi bundan sonra Firat müəllimin rayondakı siyasi nüfuz dairəsi və siyasi əmək fəaliyyəti dairəsi genişlənmişdir. Belə ki, 1985-1989-cu illərdə Cəbrayıl rayon Partiya Komitəsində partiya nəzarəti komissiyasının sədri vəzifəsində, 1989-1991-ci illərdə RPK-da təşkilat şöbəsinin müdiri vəzifəsində, 1992-1993-cü illərdə Cəbrayıl RİH-nin Cəbrayıl şəhəri üzrə nümayəndəsinin müavini vəzifəsində işləmişdir.

Bütün bu dövrlər ərzində o, sovet siyasi rejiminə xas olan bürokratizm meyillərindən özünü təcrid etmiş, humanist davranış prinsipləri əsasında işləyərək işlədiyi kollektivin və ətrafındakıların, onu tanıyanların qarşılıqlı hörmətini qazanmışdı. Elə bu xarakteri də onu gözəgörünməz taleyin diqtəsi ilə humanitar iş sahəsi kimi tanınan bir sahədə işləməyə gətirib çıxarmışdır. 1993-2004-cü illərdə DSMF-nin Cəbrayıl rayon şöbəsində baş müfəttiş, 2004-2013-cü illərdə şöbənin Gəlirlər sektorunun müdiri, 2013-2015-ci illərdə şöbənin müdir müavini-gəlirlər sektorunun müdiri vəzifələrində çalışmışdır. Belə bir humanitar sahənin işçisi kimi də o, 4 avqust 2015-ci ildə pensiya yaşına çatması ilə bağlı öz ərizəsi ilə təqaüdə çıxmışdı.

Özünə qarşı ictimaiyyətdə böyük sevgi qazanan F.B. Əliyev həm də ləyaqətli ailə başçısı idi. 5 qız, 1 oğul atası idi. Amma həyatda bir şeydən nisgili vardı. Doğma Cəbrayıla, Maralyan kəndinə qayıtmaq, orada yaşamaq... Lakin 23 sentyabr 2018-ci il tarixi onun bu arzusunu gerçəkləşdirməyə macal vermədi. Yurd nisgili ilə həyatla vidalaşdı Firat müəllim. Özü ilə bir ömürlük həzin xatirə qoyub getdi.

**Allah sənə rəhmət eləsin, Firat müəllim!**

**Cəbrayıl rayon İcra Hakimiyyəti,**
**YAP rayon təşkilatı,**
**DSMF-nin rayon şöbəsi və**
**"Xudafərin" qəzeti**

### TUTUM

*Şair Malik Əhmədoğluna*

Dünya başdan-başa dumanmış, Malik,
Bir çəhlim axtarım, bircə iz tutum.
Hər zaman dünənin adamı olduq,
Dövranın nəbzini gərək tez tutum.

Dalğalar sahilə ləpə çıxdılar,
O dağ timsallılar təpə çıxdılar.
Palıd cüssəlilər çöpə çıxdılar,
Ta kimə inanım, kimə üz tutum?

Fitnə dəllalları uzunəllidir,
Məramı-məqsədi elə bəllidir.
Qara niyyətlidir, şeytan fellidir,
Çəkim təəssübün, namın yüz tutum.

Nadan əməlindən etməyəcək ar,
Qədirbilməzlərin təmənnası var.
Heç kimə qalmayıb daha etibar,
Allahla aranı gərək düz tutum.

Bu mey məclisində nədi tərsliyim,
Hünərdə Sabirə babı səsləyim.
Dərdi unutdurar bəlkə məstliyim,
Sən qaldır şərabı cama süz, tutum

**Sabir Şirvan**

# Cəbrayıl rayon prokurorunun 2018-ci ilin 4-cü rübündə yaşayış yerləri üzrə vətəndaşların qəbul vaxtları

| S/S | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Bakı şəhəri, Nərimanov rayonu (Cəbrayıl rayon İcra Hakimiyyətinin qərargahı) | 20.10.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 2. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 7 saylı qəsəbə | 16.11.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 3. | Bakı şəhəri, Nərimanov rayonu (Cəbrayıl rayon İcra Hakimiyyətinin qərargahı) | 08.12.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 4. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 9 saylı qəsəbə | 21.12.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |

### Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti

İmamverdiyeva Gülüzə Hacı qızı, Alməmmədova Fatma Vəli qızı, Ağalarov Rövşən Vəli oğlu, Əhmədova Əminə Əkbər qızı,İsmayılova Şura İba qızı, İbayev Məhərrəm Sədulla oğlu, Ağayev Vahid Məhəmməd oğlu, Babayev Məmməd Musa oğlu, Allahverdiyev Vəli Məhəmməd oğlu, Abasquliyev Mürşüd Talış oğlu, Cəfərova Gülnisə Məhəmməd qızı, Quliyev Şahlar Məhəmməd oğlu, Cəfərov İrəvan Xəlil oğlu, Alışov Əzim Rəcəb oğlu, Rüstəmov Natiq Paşa oğlu, Məlikov İzzət Abbas oğlu, Əmiraslanov İman Bədəl oğlu, Babayev Abbas Mürvət oğlu, Ağakişiyeva Fitat Həsən qızı, İbrahimov Vəli Bədəl oğlu, Tahirov İdris Qara oğlu, Alıquliyeva Tamara Şükür qızı, Verdiyev Camal Soltan oğlunun **vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
"Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Açıq Səma" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 3100**
**Tiraj: 1000**